***VALİDEYNLƏRİNİ İTİRMİŞ VƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLARLA İŞ***
***РАБОТА С ДЕТЬМИ, ПОТЕРЯВШИХ РОДИТЕЛЕЙ И ЛИШЕННЫХ РОДИТЕЛЬСКОЙ ОПЕКИ***
***WORK WITH CHILDREN WHO HAVE LOST THEIR PARENTS AND ARE DEPRIVED OF PARENTAL CARE***

*UOT 159.9.2.316.37*

***Günel Oqtay qızı Şahinzadə***
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0004-2575-7920*
*https://doi.org/10.69682/arti.2024.91(6).154-157*

# VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLARDA ÖZÜNÜDƏRKİNDƏ MƏNƏVİ XÜSUSİYYƏTLƏRİN ROLU

***Гюнель Октай гызы Шахинзаде***
*докторант по программе доктора философии*
*Бакинского Государственного Университета*

# РОЛЬ НРАВСТВЕННЫХ ОСОБЕННОСТЕЙ В САМОСОЗНАНИИ ДЕТЕЙ, ЛИШЕННЫХ РОДИТЕЛЬСКОЙ ОПЕКИ

***Gunel Ogtay Shahinzade***
*doctorial student in the program of doctor of philosophy at the*
*Baku State University*

# THE ROLE OF MORAL CHARACTERISTICS IN SELF-CONCEPT IN CHILDREN DEPRIVED OF PARENTAL CARE

**Xülasə.** Müasir dövrdə insanın özünüdərkində əxlaqi xüsusiyyətlərin öyrənilməsi problemi xüsusi əhəmiyyət kəsb edir. "Şəxsiyyətin özəyi" kimi özünüdərk davranış və fəaliyyətin daxili tənzimləyicisi kimi çıxış edir. Sosial normaların dərk edilməsinə vasitəçilik edir, digər insanlarla və ətrafımızdakı dünya ilə münasibətlər sistemini, davranışın xarakterini, strategiyaların qiymətləndirilməsini müəyyən edir. Bu problemin valideyn himayəsindən məhrum olmuş uşaqlarda təzahürünün öyrənilməsi aktuallıq kəsb edir. Həmçinin məqalə uşaqların psixi inkişafında əxlaqi tərbiyənin formalaşması kimi mühüm məqamların təhlilini özündə əks etdirir.
***Açar sözlər**: özünüdərk, mənəvi-əxlaqi keyfiyyətlər, yeniyetməlik, inkişaf, şəxsiyyət*

**Аннотация.** В современное время проблема изучения нравственных качеств в самосознании человека приобретает особое значение. Самосознание как «ядро личности» выступает внутренним регулятором поведения и деятельности. Оно опосредует понимание социальных норм, определяет систему отношений с другими людьми и окружающим миром, характер поведения, оценку стратегий. Важно изучить проявление этой проблемы у детей, лишенных родительской опеки. Также в статье проводится анализ таких важных моментов психического развития детей, как формирование нравственного воспитания.
***Ключевые слова:** самосознание, духовно-нравственные качества, подростковый возраст, развитие, личность.*

**Abstract.** In modern times, the problem of studying moral characteristics in human self-awareness is of particular importance. Self-awareness as the "core of personality" acts as an internal regulator of behavior and activity. It mediates the understanding of social norms, determines the system of relations with other people and the world around us, the nature of behavior, and the evaluation of strategies. It is important to study the manifestation of this problem in children deprived of parental care. The article also includes an analysis of important points in the mental development of children, such as the formation of moral education.
***Keywords:*** *self-awareness, spiritual and moral qualities, adolescent, development, personality*

Ümumi psixoloji problem kimi əxlaq, psixologiyada ilk növbədə, şəxsi və fəaliyyət yanaşmaları çərçivəsində nəzərdən keçirilir, burada əsas diqqət onun sosial və mədəni-tarixi şərtlərinin müəyyənləşdirilməsinə yönəlmişdir [1, 8, 9]. Psixologiyada bu istiqamət çərçivəsində "mənəvi intellekt" anlayışı subyektin əxlaq normalarını və kateqoriyalarını dərk etməyə imkan verən intellektual inkişaf səviyyəsi (və ya keyfiyyəti) kimi istifadə olunmağa başlandı.

Bu istiqamətdə tədqiqat aparan bihovieristlər, xüsusən də E. Torndayk, hisslərin davranışa təsir etməsindən daha çox davranışımızın hisslərimizə təsir etdiyini qeyd edirdi. Onun fikrincə insanın mənəvi-əxlaqi keyfiyyətləri onun fəaliyyətinin nəticəsində yaranır. Əxlaq əməl vərdişlərindən yaranır və hərəkət vərdişlərini təmin etmək üçün əməllərin özündən başqa heç bir yol yoxdur. Bu baxımından zülmə qarşı xeyirxah və mərhəmətli əməllərin həyata keçirmək daha yaxşı vasitə hesab oluna bilər.

Uşaqlarda əqli inkişaf və əxlaqi mühakimələrin yetkinlik səviyyəsi arasındakı əlaqə probleminə ilk dəfə görkəmli tədqiqatçı J. Piaje diqqət yetirmişdir. Apardığı tədqiqat nəticəsində J. Piaje uşaq intellektinin inkişaf mərhələsi ilə onun əxlaqi mühakimələrinin səviyyəsi arasında müəyyən əlaqə olduğunu bildirmişdir [10]. J.Piajenin apardığı tədqiqat uşağın müxtəlif qaydalar və ya əxlaqi dilemmalar haqqında mülahizələrini qeyd etməkdən, xüsusi hekayələr vasitəsilə uşağa məharətlə təqdim etməkdən və uşağın oyununu müşahidə etməkdən ibarət idi. Öyrənilən uşaqların əxlaqi mühakimələrinə qaydaların mənşəyi, haradan gəldiyi və nə üçün riayət edilməli olduğu, normaların pozulmasına görə sanksiyalar, onların mənası və məqsədi, habelə hərəkətlərin ədalətliliyi və öz əməllərinə görə məsuliyyət haqqında mülahizələr daxil edilmişdir. J. Piajenin fikrincə, əxlaqi inkişaf uşağın sosial mühitin tələblərinə uyğunlaşması prosesidir. Tədqiqatçı hesab edir ki, uşağın intellektual inkişafı ilə onun əxlaqi hisslərinin inkişafı arasında uyğunluq var: idrak və affektiv sahələrinin inkişafı eyni fundamental formalaşmalarda – davranış nümunələrində dəyişikliklərə əsaslanır. Bu davranış nümunələri müəyyən bir vəziyyətə münasibətdə subyektin reaksiyasının yollarını müəyyən edir, daim təkrarlanan və digər vəziyyətlərə uyğun ümumiləşdirilir. Onların inkişafı uşağın həmyaşıdları və böyüklər ilə münasibətlərinə əsaslanır. İlk dəfə olaraq uşaqda əxlaqi hisslər J. Piajenin "mənəvi realizm" mərhələsi adlandırdığı inkişafın əməliyyatdan əvvəlki mərhələsində (2-7 yaş) meydana çıxır. Onun fikrincə həmin yaşda uşağın əxlaqi mühakimələri aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

1) "qərəzlilik" – ümumiləşdirmənin olmaması (məsələn, uşaq həmyaşıdı ilə bağlı yalan danışmağı böyüklərə nisbətən daha az pislik kimi qəbul edir);

2) əxlaqi mühakiməni əşyaların xarici tərəfi ilə məhdudlaşdırmaq (cəza dərəcəsinin bölüşdürülməsində uşaq daxili motivlərdən deyil, maddi zərərin miqdarından çıxış edərək qiymətləndirir [8,s.234].

Əxlaqi mühakimələrə standart, ardıcıl mərhələlərin irəliləməsi kimi baxılan əxlaqın koqnitiv nəzəriyyəsi L. Kolberq tərəfindən irəli sürülür. L. Kolberq müxtəlif yaşlarda olan uşaqların əxlaqi mühakimələrinin və etik ideyalarının inkişafı ilə bağlı J. Piajenin təcrübələrini davam etdirmişdir. Onun tədqiqatlarında uşaqlardan hekayələrdəki personajların hərəkətlərini qiymətləndirmək və mühakimələrini əsaslandırmaq təklif olundu. Məlum oldu ki, müxtəlif yaş mərhələlərində uşaqlar əxlaqi problemləri fərqli şəkildə həll edirlər və etik fikirlərin inkişafı uşağın konkret təcrübəsindən asılıdır [8, s.31-53]. Bu yaşda uşaq böyüklərin bütün tələblərini dəyişməz və toxunulmaz hal kimi qəbul edir. Əxlaqi inkişaf idrak inkişafının ümumi prosesləri ilə əlaqələndirilir və bu istinad çərçivəsində əxlaqi mühakimə mərhələlərinin təsviri təqdim olunur. Beləliklə, L. Kolberqin fikrincə, əxlaqi inkişafda "daxili yönəlişliyin artması"nı sadəcə olaraq mədəni normaların birbaşa daxilə çevrilməsinin nəticəsi kimi şərh etmək səhvdir. Daha

doğrusu, onun fikrincə daxili əxlaqi yönəlişlik təbii inkişafın əsasını təşkil edir. Onun fikrincə əxlaq qanunlarının özləri hələ uşaq tərəfindən müstəqil və tam şəkildə müəyyən edilməmişdir. Bu səviyyədə əxlaq uşağın böyüklərə birtərəfli hörmətinə əsaslanaraq "avtoritarizm və boyun əymə əxlaqı" kimi xarakterizə olunur.

L. Kolberq üçün əxlaqi şüurun inkişafı ardıcıl prosesdir. Əxlaqi inkişaf isə "sosial fəaliyyətin mədəni qaydalarının interyerləşdirilməsidir". Geniş eksperimental materialı ümumiləşdirərək, o, uşaqlarda əxlaqi mühükimələrin formalaşması ilə bağlı üç səviyyəni özündə birləşdirilən altı inkişaf mərhələsini müəyyənləşdirdi.

Birinci səviyyə konvensiyadan əvvəl adlanır. Konvensiyadan əvvəlki səviyyədə fərdin əxlaqı nüfuzlu böyüklər və mədəniyyət normaları tərəfindən müəyyən edilən xarici qaydalarla müəyyən edilir və onlara əməl olunması fərdi cəzaya və ya bəyənilməyə zəmanət verir. Bu səviyyə məktəbəqədər və ibtidai məktəb yaşlı uşaqlar üçün xarakterikdir. L. Kolberqə görə bu səviyyədə iki mərhələ fərqləndirilə bilər:

İkinci mərhələ instrumental oriyentasiya adlanır. Davranış xarici şərtlərlə müəyyən edilir. Fərd mükafat almağa və ya öz ehtiyaclarını ödəməyə diqqət yetirir. İkinci mərhələdə, düzgün hərəkətlərinə görə tərif və ya başqa bir mükafat alacağını gözləyərək, böyüklərin təlimatına diqqət yetirməyə başlayır. Uşaq bir hərəkət haqqında ondan əldə edilə biləcək faydaya uyğun olaraq qərar verir.

Üçüncü mərhələ yaxşı oğlan/yaxşı qız adlanır. Davranış sosial razılıqla tənzimlənir. Fərd başqalarından razılıq almağa, başqalarının gözündə "yaxşı və xeyirxah insan" olaraq qalmağa çalışır.

Dördüncü mərhələ qanun və qaydaya istiqamətləndirmə adlanır. Davranış sosial qaydalar və qanunlarla müəyyən edilir. Fərd cəmiyyətin qanunlarını ehtiva edən normaların geniş perspektivini nəzərə alır. Mənəvi mühakimələr təkcə başqalarının fikrinə deyil, həm də sosial normalara əsaslanaraq verilir. Fərd hüquq normalarını ictimai nizamın əsas tənzimləyicisi hesab edir və onların qorunmasının tərəfdarıdır.

L. Kolberq uşaqlarda əxlaqi mühakimələrin formalaşmasının ikinci səviyyəsini postkonvensional adlandırır. Postkonvensional səviyyədə fərd mövcud fərdi və ya sosial norma və qaydalar çərçivəsindən kənarda qalan anlayışlarla fəaliyyət göstərir. Əxlaqi davranış bütün vəziyyətlərə və icmalara aid olan ali mücərrəd prinsiplərə və dəyərlərə istinad etməklə müəyyən edilir. Əxlaqi mühakimələrdə fərd universal insan perspektivini nəzərə alır. Bu səviyyə 25 yaşdan yuxarı böyüklər üçün xarakterikdir. L. Kolberq bu səviyyədə də iki mərhələ fərqləndirir.

Beşinci mərhələ sosial müqavilə yönümü adlanır. Davranış insan hüquqları ilə tənzimlənir. Fərd qanunlara və sosial normalara fərdin xeyrinə yönəlmiş çevik alət kimi baxır və bu, qaydalardan istisnaların nəzərə alınmasına imkan verir Altıncı mərhələ universal etik prinsiplərə istiqamətlənmə adlanır. Kolberqə görə, bu mərhələ əxlaqi inkişafın ən yüksək mərhələsidir. Müəllifin fikrincə, bu mərhələyə gəlmək hər kəsə nəsib olmur. Bir insanın davranışı daxili prinsiplər toplusu və ya etik vicdan kodeksi ilə tənzimlənir. Bu prinsiplər toplusu mücərrəd və universaldır. Mənəvi mühakimə, qərardan təsirlənə biləcək qrupun hər bir üzvü nəzərə alınmaqla, fərd tərəfindən verilir.

Bir sıra tədqiqatçılar Kolberqin nəzəriyyəsini, xüsusən də mənəvi mühakimə qabiliyyətinin inkişafının universallığını və ardıcıllığını ideyasını dəstəkləyir. Müxtəlif sosial və yaş qrupları üzrə əldə edilən mədəniyyətlərarası, tədqiqatlardan əldə edilən məlumatlar göstərir ki, Kolberqə görə uşaqların yaşı və əxlaqi inkişaf mərhələsi bir-biri ilə bağlıdır və mərhələlərin inkişafı onun təsvir etdiyi ardıcıllıqla baş verir [7, s.56]

Kolberqin nəzəriyyəsi əxlaqi mühakimə ilə əxlaqi hərəkət arasındakı əlaqəyə toxunmur, lakin müəllif özü belə bir əlaqənin mövcud olduğunu irəli sürmüşdür. Kolberqin fikrincə, əxlaqi mühakimələrə ən uyğun olan davranışın əxlaqi inkişafın daha yüksək mərhələlərində həyata keçirilmə ehtimalı daha çoxdur. Çünki bu mərhələlər daha sabit daxili standartları özündə ehtiva edir. Kolberq, təhsil sisteminə şagirdlərin mənəvi inkişaf miqyasında ən yüksək pillələrə yüksəlməsinə kömək edəcək xüsusi təhsil proqramlarının tətbiqinin zəruriliyi haqqında fikirlər inkişaf etdirdi.

Mənəvi-əxlaqi inkişafın öyrənilməsinin əsas metodoloji prinsipləri insanın öz fəaliyyəti və bu fəaliyyətin sosial məhsulları ilə əlaqədar subyekt kimi qəbul edilməsinin vacibliyi ilə bağlıdır. Bu prinsipdən çıxış etsək uşağın mənəvi inkişafına cəmiyyət tərəfindən müəyyən edilmiş davranış nümunələrinin mənimsənilməsi

prosesi kimi baxmaq lazımdır [10, s.123]. Son nəticədə isə bu nümunələr tənzimləyicilərə, yəni uşağın davranışının motivlərinə çevrilir. Bu zaman insan cəzadan yayınmaq, bəyənilmək üçün deyil, insanlar arasında münasibətlərin prinsipi kimi mövcud normaların özünə riayət etmək naminə davranışlarını tənzim edirlər.

Bu istiqamətdə tədqiqat aparan D.B. Elkonin ontogenetik inkişafın sosial qanunauyğunluqlarla müəyyən edilməsi konsepsiyasını ilk dəfə mənəvi, əxlaqi inkişafa tətbiq edərək, ilkin əxlaqi-mənəvi fikirlərin böyüklər tərəfindən qiymətləndirilməsi ilə əlaqəli davranış nümunələrinin mənimsənilməsi prosesi kimi meydana çıxması ideyasını irəli sürdü. Bu nümunələr uşağı əhatə edən reallıqdan götürülür. Nümunə rolunda isə onların həmyaşıdları, tanış böyüklər, həmçinin müəyyən peşə və ya mənəvi keyfiyyətlərə malik insanların kollektiv obrazları ola bilər.

**Problemin aktuallığı.** Valideyn himayəsindən məhrum uşaqların yalnız fizioloji deyil, həm də psixoloji inkişafı onların mənəvi əxlaqi keyfiyyətləri mənimsəməsi və bu istiqamətli təhlillərin aparılması mühüm əhəmiyyət daşıyır.

**Problemin elmi yeniliyi**. Məqalədə şəxsiyyətin özünüdərk və əxlaqi inkişaf məsələlərinə toxunulmuşdur.

**Problemin nəzəri və praktiki əhəmiyyəti.** Məqalə bu sahədə çalışan pedaqoqlar, psixoloqlar, eləcə də mövzuyla bağlı təhlillər aparmaq istəyən tələbələr üçün əhəmiyyətli ola bilər.

**Ədəbiyyat:**


1. Альбекова С.Б., Данилова Т.Н. Детско-родительские отношения как фактор влияния на психическое развитие ребенка // Молодежный научный вестник. – 2017. – № 4. – С. 45-48
2. Бернс Р. Что такое Я-концепция / Р. Бернс // Психология самосознания: Хрест. / Ред. Д. Я. Райгородский. – Самара: Бахрах. -М, 2011. – С. 333-393. s.
3. *Божович Л.*И. О *нравственном развитии* и *воспитании детей* / *Л.*И. Божович // *Вопросы психологии*. – М.: Просвещение, 1975. – 254
4. Кон И.С. Психология старшеклассника / И.С. Кон.–Москва: Просвещение, –1980. –192 с.
5. Столин, В.В. Самосознание личности / В.В. Столин. – М.: Просвещение, 1983. – 288 с.
6. Субботский Е.В. Формирование морального действия у ребенка // Вопросы психологии. 1979. №3. С. 47-55.
7. Killian B. Risk and Resilience: A Generation at Risk? HIV/AIDS, Vulnerable Children and Security in Southern Africa // Killian B. – 2007, 456 p.
8. Kohlberg L. Moral stages and moralization: the cognitive-developmental approach // Moral development and behavior: theory, research, and social issues / Ed by T. Lickona. – New-York etc.: Holt, Rinehart and Winston, 1976. – p. 31–53
9. Lansford J. Parental divorce and children's adjustment. Perspectives on Psychological Science // J.Lansford. 2009;- 2: -p. 40- 52
10. Lin, K.K., Sandler, I.N., Ayers, T.S., Wolchik, S.A. Luecken, L.J. Resilience in Parentally Bereaved Children and Adolescents Seeking Preventive Services // K.K. Lin, I.N. Sandler.- Journal of Clinical Child and Adolescent Psychology.-2004. - 33(4), -p. 673-683
11. Luecken, L.J., Kraft, A., Appelhans, B.M., Enders, C. Emotional and cardiovascular sensitization to daily stress following childhood parental loss, Developmental Psychology // L.J. Luecken, A .Kraft. B.M. Appelhans, -2009. -45 (1), p. 296-302
12. Shubina, A. The image of the family in children's picture of the world, deprived of parental care // A .Shubina.- Volgograd: Volgograd State Pedagogical University, -2013.- 303 p.
13. Shulga, T. Social and psychological problems of orphanage graduates and children left without parental care // T.Shulga.- Bulletin of the Moscow State Regional University. Series Psychology, -2013.- 3,p. 68-75


**E-mail:** abbasovagunel@inbox.ru
**Redaksiyaya daxil olub:** 31.10.2024